# Hər gecə uca və müqəddəs Rəbbimiz gecənin son üçdə birində dünya səmasına enərək

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: "Hər gecə uca və müqəddəs Rəbbimiz gecənin son üçdə birində dünya səmasına enərək deyir: “Mənə dua edən varmı duasını qəbul edim? Məndən istəyən varmı ona istədiyini verim? Məndən bağışlanma diləyən varmı onu bağışlayım?".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, hər gecə, uca və müqəddəs Rəbbimiz gecənin son üçdə bir hissəsində dünya səmasına enərək, qullarını Ona dua etməyə çağırır, çünki O qulun duasını qəbul edəndir. İstəklərini Ondan diləməyə təşviq edir, çünki O istəkləri yerinə yetirəndir. Günahlarının bağışlamasını Ondan diləməyə çağırır, çünki O mömin qullarını bağışlayandır.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee